*Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 iyun 2018-ci il № 48 (2264) Qiyməti 25 qəpik


# 26 İyun Silahlı Qüvvələr Günüdür

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı seçkilərdə əldə etdiyi inamlı qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və inkişafı naminə yeni uğurlar arzulayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul edilib.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**

general-mayor Ayaz Binyət oğlu Həsənova

**"general-mayor" hərbi rütbəsi**

polkovnik Fazil Köçəri oğlu Ağalarova
polkovnik Məmməd Şəmil oğlu Eminova
polkovnik Elçin Xəzənağa oğlu Xəlilova
polkovnik Rauf Arif oğlu İsmayılova
polkovnik Namiq Qasım oğlu Poladova
polkovnik Mübariz Balağa oğlu Rzayevə
polkovnik Niyaməddin Məhərrəm oğlu Tağıyevə.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2018-ci il.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov:

# Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır və qadirdir



*İyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü qeyd olunur. Bu münasibətlə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordumuzun əsas prioritetləri, aparılan uğurlu islahatlar, əldə olunan nailiyyətlər və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşüb.*

Bu gün 100 yaşını qeyd etdiyimiz Milli Ordumuzun yaradılması, formalaşması və döyüşlərdə bərkiməsi hələ keçən əsrin əvvəllərinə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövrünə təsadüf edir.

Tarixi ənənələrin, varislik prinsiplərinin yaşadılması baxımından ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla 26 iyun tarixi, ilk ordu hissəsi "Əlahiddə Azərbaycan Korpusu"nun təşkil olunduğu gün əsas tutularaq Azərbaycan Respublikasının "Silahlı Qüvvələr Günü" elan edilmişdir. Bu tarixin Silahlı Qüvvələr Günü elan edilməsi Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malikdir.

(Ardı 3-cü səhifədə)

1918 Azərbaycan Ordusu - 100 2018

# Müdafiə Nazirliyinin rəhbərliyi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

*İyunun 25-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Silahlı Qüvvələrin 100 illiyi münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə və Zərifə xanım Əliyevanın məzarına əklil və gül dəstələri qoyulub, xatirələri hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın xatirəsinə ucaldılmış Şəhidlər kompleksindəki Əbədi məşəlin və "Türk Şəhidliyi" abidəsinin önünə, eləcə də şəhid məzarlarına əklil və gül dəstələri qoyulub.



# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**1-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Həsənov Zakir Əsgər oğlu - general-polkovnik
Sadıkov Nəcməddin Hüseyn oğlu - general-polkovnik
Mustafayev Kərəm Nəriman oğlu - general-leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Vəliyev Kərim Tofiq oğlu - general-leytenant
Eyyubov Teymur Tərlan oğlu - general-mayor
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Nəcəfov Hilal Əlimurad oğlu - general-mayor
Kərimov Anar Təvəkkül oğlu - polkovnik
Qurbanov Abdulla Novruz oğlu - polkovnik

**"Vətən uğrunda" medalı ilə**

Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Ağayev Zakir Samiddin oğlu - general-mayor
Salahov Füzuli Zəbiş oğlu - general-mayor
Abdullayev Rafael Kamil oğlu - polkovnik
Hümmətov Zaur Cəlal oğlu - 1-ci dərəcəli kapitan
Məhərrəmov Etibar İsmayıl oğlu - polkovnik
Məmmədov Nizami Ağoğlan oğlu - polkovnik
Pirverdiyev Akif Səməndər oğlu - polkovnik
Rüstəmov Zaur Zeynalabdul oğlu - polkovnik
Dadaşov Haqverdi Xudaverdi oğlu - polkovnik-leytenant
Əliyev Hüseyn İsbəndiyar oğlu - tibb xidməti polkovnik-leytenantı
Həmidov Tural Fəxrəddin oğlu - polkovnik-leytenant
Quliyev Ümüdvar Əzizalı oğlu - polkovnik-leytenant
Məmmədov Cəlil Allahverən oğlu - polkovnik-leytenant
Tatarov Adil Əli oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Osmanov Nizam Ramazan oğlu - general-leytenant
Bərxudarov Mayis Şükür oğlu - general-mayor
Cəbrayılov Xəqani Sərdar oğlu - general-mayor
Hüseynov Zahid İbrahim oğlu - general-mayor
Bayramov Samir Azad oğlu - polkovnik
Həsənov Məhəmməd Kərim oğlu - polkovnik
Ağayev İldırım Kərimağa oğlu - polkovnik-leytenant
Cavadov Rüstəm Gürşad oğlu - polkovnik-leytenant
Həmzəyev Muxtar İsmayıl oğlu - polkovnik-leytenant
Məmmədov Teymur Davud oğlu - polkovnik-leytenant
Rüstəmov Fariz Məhərrəm oğlu - polkovnik-leytenant
Rzayev Gülməmməd Tofiq oğlu - polkovnik-leytenant
Seyidov Cəfər Əziz oğlu - polkovnik-leytenant
Səfərov Elxan Hüseyn oğlu - polkovnik-leytenant
Şıxlinski Vüqar Zakir oğlu - polkovnik-leytenant
Cəfərov Aqil Özüxan oğlu - mayor
Mirzəyev Hikmət İslam oğlu - mayor
Süleymanov Faiq Rafiq oğlu - mayor
Həsənov Hümmət Fərrux oğlu - kapitan
İsaqov Mircəlal Eldar oğlu - kapitan
Mehdiyev Ələsgər Əli oğlu - kapitan
Məmmədov Rəşad Arif oğlu - kapitan
Şirinov Elnur Ramiz oğlu - kapitan
Tağıyev Vüsal Musa oğlu - kapitan
Vəliyev Nizami Dünyamin oğlu - kapitan
Gözəlov Əlqəm Əhəd oğlu - baş leytenant
Şıxnəbiyev Renat Gülməmməd oğlu - baş leytenant
Zeynalov Təbriz Eyvaz oğlu - baş leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əkbərov Rövşən Telman oğlu - general-leytenant
Babayev Rasim Rza oğlu - polkovnik
Bağırov Natiq Hacıverdi oğlu - 1-ci dərəcəli kapitan
Cəbrayılov Sərvər Sərdar oğlu - polkovnik
Əkbərov Nizami Əvəz oğlu - polkovnik
Əliyev İmran Kamran oğlu - polkovnik
Məmmədov Zahid Həsən oğlu - polkovnik
Şıxiyev Həbib Vələddin oğlu - polkovnik
Abdullayev Eldəniz İkram oğlu - polkovnik-leytenant
Baxışov Səxavət Mamed oğlu - polkovnik-leytenant
Daşdəmirov Mehman Qəhrəman oğlu - polkovnik-leytenant
Əmrah Anar Eldar oğlu - tibb xidməti polkovnik-leytenantı
Hüseynov Çingiz Oruc oğlu - polkovnik-leytenant
Xaniyev Vüsət Barat oğlu - polkovnik-leytenant
İbrahimov Rəşad Miraslan oğlu - polkovnik-leytenant
İsmayılov Füzuli Qəzənfər oğlu - polkovnik-leytenant
Paşayev Alıbəy Şəmil oğlu - polkovnik-leytenant
Səmidli Babək Mətləb oğlu - polkovnik-leytenant
Süleymanov Elşad Nadir oğlu - polkovnik-leytenant
Tinayev Rəşid Cuma oğlu - polkovnik-leytenant
Allahverdi İmran Əli oğlu - mayor
Babayev Aqşin Əli oğlu - mayor
Xəlilov Ramil Vəlixan oğlu - mayor
İsgəndərov İbrahim Əsəbəli oğlu - tibb xidməti mayoru
Nərimanov Cavad Əliyar oğlu - mayor
Osmanov Vasif Ramizoviç - mayor
Dadaşov Tural Alxan oğlu - baş leytenant
Balayev Coşqun Vaqif oğlu - gizir
Rəşidov İlham Tahir oğlu - gizir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2018-ci il.

1918 Azərbaycan Ordusu - 100 2018

## Müdafiə naziri general-polkovnik Zakir Həsənov:

# Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır və qadirdir

(Əvvəli 1-ci səhifədə)



Qeyd etdiyimiz bayram təkcə hərbçilərin deyil, ümumilikdə, bütün Azərbaycan xalqının bayramıdır. Bu səbəbdən də xalqımızı əlamətdar gün münasibətilə təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ordumuz bu yubileyi konkret uğurlar, qələbələr və böyük yeniliklərlə qarşılayır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan hərbi quruculuq prosesi ölkəmizdə bu gün də uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir.

İslahatların kompleks şəkildə həyata keçirilməsi ordumuzun aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməsinə şərait yaradıb. Ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar ölkəmizin bütün sahələrdə inkişafına təkan verdiyi kimi, hərbi büdcəmizin də qısa müddətdə dəfələrlə artmasına imkan yaradıb.

Fəaliyyətimizi Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Silahlı Qüvvələrin Ali Baş Komandanının fərman və sərəncamları, habelə digər normativ hüquqi aktlarını rəhbər tutaraq həyata keçirirk. Əməliyyat və döyüş hazırlığı tədbirləri, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı, hərbi təhsilin inkişafı, kadrların hazırlanması, maddi-texniki təminat məsələləri və hərbi qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər planlı şəkildə davam etdirilir.

2018-ci il orduda komandir hazırlığı və bütün səviyyədə olan komandirlərin real döyüş şəraitində qoşunların və silahların idarə edilməsi üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi ili elan olunub.

Ölkəmizin təcavüzdən, silahlı hücumdan müdafiəsinin təmin edilməsi üçün Azərbaycan Ordusunda əsas diqqət qoşunların döyüşə hazırlıq və səfərbərlik tədbirlərinə yönəldilib. Müasir təhdidlərə, risklərə və çağırışlara cavab vermək məqsədilə qoşunların döyüş qabiliyyətinin artırılması istiqamətində hərtərəfli kompleks tədbirlər icra edilir.

Ərazinin real şəraiti nəzərə alınmaqla qoşunların müasir döyüşün aparılması tələblərinə cavab verən qüvvə və vasitələrlə hərtərəfli təmin olunması məqsədilə əsas tədbirlər həyata keçirilir. Döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə onların hazırlıq səviyyəsi planlı şəkildə və müxtəlif vaxtlarda qəfil yoxlamalarla hərtərəfli təftiş edilir.

Müdafiənin ön xəttində bütün istiqamətlər üzrə zəruri fortifikasiya işləri yerinə yetirilib, mühəndis-istehkam təminatı təkmilləşdirilərək mövqelər möhkəmləndirilib, yeni mühəndis şəbəkələri, uzunmüddətli dəmir-beton atəş nöqtələri tikilib, əlavə torpaq sipərlər, qovşaqlar çəkilib, səngərlər və yeraltı əlaqə şəbəkələri hazırlanıb. Görülən bu işlər şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi imkanlarını xeyli dərəcədə artırıb.

Çətin və dağlıq şəraitdə yerləşən döyüş mövqelərinə, o cümlədən kolonların maneəsiz və təhlükəsiz hərəkəti üçün yolların çəkilişi davam etdirilib, müasir tələblərə cavab verən rabitə və digər kommunikasiya vasitələri quraşdırılıb və yenilənib. Bu fəaliyyətlər əməliyyat şəraiti nəzərə alınmaqla bu gün də davam etdirilir.

Eyni zamanda, bölmələrin döyüş qabiliyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması məqsədilə onların təşkilat-ştat strukturu optimallaşdırılıb. Hərbi qulluqçuların sırf döyüş hazırlığı ilə məşğul olmaları üçün hər bir şərait yaradılıb, lazım olan bütün tədbirlər həyata keçirilib. Azərbaycan Ordusunun inkişaf proqramı döyüş hazırlığının, hərbi təhsili, tərbiyəvi işi, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasını və digər sahələri əhatə edib.

Ordunun inkişafını müəyyən edən əsas amillərdən biri də şəxsi heyətin 80 faizinin müqavilə əsasında xidmət edən hərbi qulluqçularla komplektləşdirilməsi olub. Əsas döyüş təminatını müəyyən edən vəzifələrə ixtisaslı mütəxəssislərin və peşəkar hərbi qulluqçuların təyin edilməsi ordumuzun döyüş hazırlığının yüksəlməsinə müsbət təsir göstərib. Şəxsi heyətin təsərrüfat işlərindən azad olunmasını təmin etmək məqsədilə yardımçı təminat sahələrinə 21 min nəfərədək mülki işçi qəbul edilib. Bu, döyüş hazırlığının optimallaşdırılması istiqamətində atılan ən vacib addımlardandır.

Hazırlıq planına əsasən, qoşun növlərinin, qərargahların, komandir-rəis heyətinin və şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi, peşəkarlığının yüksəldilməsi, döyüş və xüsusi texnikanın bacarıqla tətbiqi, bölmələrin uyarlığının təmin edilməsi məqsədilə hər il müxtəlif ümumqoşun poliqonlarında, təlim mərkəzlərində irimiqyaslı strateji, əməliyyat-strateji, əməliyyat-taktiki, taktiki, xüsusi taktiki, komanda-qərargah təlimləri və komanda-qərargah hərbi oyunları keçirilir.

Əməliyyat və döyüş hazırlığının təşkili və keçirilməsində əsas diqqət müasir müharibə və lokal silahlı münaqişələrdə tətbiq olunan müsbət döyüş təcrübəsinin öyrənilməsinə, qoşunların döyüş tapşırıqlarına uyğun fəaliyyətlərinin praktiki icrası üzrə bacarıq və səriştələrinin yüksəldilməsinə, komandirlərin və qərargah zabitlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə yönəldilib.

Təkcə 2017-ci il ərzində qoşunların hazırlıq planına uyğun olaraq, ümumilikdə 40-dan artıq komanda-qərargah hərbi oyunu, komanda-qərargah təlimi və komanda-qərargah səfərbərlik təlimi, eləcə də 20-dən çox taktiki təlim keçirilib.

Keçirilən təlimlərə maksimal sayda şəxsi heyət, zirehli texnika, raket və artilleriya qurğuları, Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri, Hərbi Dəniz Qüvvələrinin gəmi və katerləri, eləcə də Xüsusi Təyinatlı Qüvvələr cəlb edilib.

Cari ilin mart ayında Silahlı Qüvvələrin Ali Baş Komandanının təsdiq etdiyi plana əsasən, müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrin iştirakı ilə cəbhə bölgəsində yerləşən müxtəlif poliqonlarda genişmiqyaslı döyüş atışlı təlimlər keçirilib. Təlimlərdə 25.000 nəfərədək şəxsi heyət, 250-dək tank və digər zirehli texnika, 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, ordu və cəbhə aviasiyasının 50-dək müxtəlif təyinatlı təyyarə və helikopterləri iştirak edib.

Döyüş şəraitinin modelləşdirilməsi və real atışların icrası ilə keçirilən təlimlərdə məqsəd idarəetmə orqanları və qoşunların öz peşəkarlıqlarını və döyüş bacarıqlarını nümayiş etdirməsi, gələcək müharibəyə hazırlaşması olub.

İl ərzində ikitərəfli əməkdaşlıq planları və "Sülh Naminə Tərəfdaşlıq" proqramları çərçivəsində xarici ölkələrdə keçirilmiş 200-dək tədbirdə 1300 nəfərədək, Azərbaycanda keçirilmiş 140-dək tədbirdə isə 2000 nəfərədək hərbi qulluqçumuz və mülki heyət iştirak edib.

Hərbçilərimiz regional və beynəlxalq səviyyədə keçirilən müxtəlif təyinatlı taktiki və kompüter dəstəkli irimiqyaslı təlimlərdə mütəmadi olaraq iştirak edirlər. Ötən il ərzində Türkiyə, Almaniya, Rumıniya, Bolqarıstan, Gürcüstan, İordaniya və digər ölkələrdə təşkil olunan təlimlərdə yüzlərlə hərbi qulluqçumuzun iştirakı təmin edilib.

Cari ilin may ayında İzmir şəhərində keçirilən "Efes-2018" beynəlxalq təlimində və iyun ayında Qars şəhərində keçirilən Türkiyə-Azərbaycan birgə taktiki təlimində də hərbçilərimiz yüksək nəticələr əldə ediblər. Azərbaycan əsgərinin hazırlıq səviyyəsini xarici ölkələrin yüksək rütbəli hərbçiləri, mütəxəssisləri, müstəqil ekspertləri yüksək qiymətləndirir, müxtəlif ölkələrin ordularının reytinqlərini müəyyən edən beynəlxalq araşdırma mərkəzləri isə öz sənədlərində dərc edirlər.

2018-ci il ərzində Almaniya, Böyük Britaniya, Türkiyə, Gürcüstan, Serbiya, Bolqarıstan, İrlandiya, Yunanıstan, Norveç və digər ölkələrdə keçiriləcək müxtəlif təlimlərdə hərbi qulluqçularımız qüvvə qismində və qərargah zabitləri səviyyəsində təmsil olunacaqlar.

Yubiley ərəfəsində bir daha qeyd etmək istərdim ki, ordumuzun silahlanmasına yüksək texnologiyaları tətbiqi ilə hazırlanmış ən müasir, geniş ərazidə dəqiq məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu da ordumuzun qüdrətinin artmasına əvəzsiz töhfələr verib. Ali Baş Komandanın tapşırığına əsasən bu proses mərhələlərlə davamlı surətdə həyata keçirilir.

Son illər ərzində hərbi potensialımız xeyli dərəcə artaraq Ermənistan ilə Azərbaycan arasında hərbi balansı bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib.

Məhz 2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda həyata keçirilən əks-həmlə əməliyyatlarında qazanılan uğurlar Ali Baş Komandanın diqqət və qayğısı ilə orduda həyata keçirilən kompleks islahatlar nəticəsində mümkün olub. Qeyd etdiyim hər iki tarixi məqam Azərbaycan Ordusunun döyüş hazırlığı, ruh yüksəkliyi, mənəvi-psixoloji durumu və peşəkarlıq baxımından Ermənistan ordusundan qat-qat üstün olduğunu əyani şəkildə sübut etdi.

Regionun xüsusiyyətləri, cəbhəboyu zonadakı şərait və vəziyyət nəzərə alınmaqla, o cümlədən düşmən üzərində daim hərbi üstünlüyü saxlamaq məqsədilə silahlanmaya inkişaf etmiş müxtəlif ölkələrdə istehsal olunan yeni, müasir və keyfiyyətli döyüş texnikası, eləcə də digər hərbi təyinatlı məhsullar daxil edilir.

Biz müxtəlif ölkələrdən müasir tipli döyüş təyyarələri, döyüş və hərbi nəqliyyat helikopterləri, artilleriya qurğuları, zirehli texnika, rabitə vasitələri, pilotsuz uçuş aparatları alırıq. Eyni zamanda, ordumuz Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsullarla da təchiz olunur.

Rusiya, Belarus, Ukrayna kimi tərəfdaşlarımızla yanaşı, qardaş Türkiyə, o cümlədən İran, Pakistan, İsrail, Cənubi Afrika Respublikası və digər inkişaf etmiş dövlətlərlə qarşılıqlı əməkdaşlıqda hərbi imkanlarımızı genişləndiririk.

Ordumuzun arsenalında olan əksər döyüş texnikası, silah və sursatın Rusiya istehsalı olduğunu nəzərə alaraq, iki ölkənin müdafiə qurumları nümayəndələrinin birgə işçi qrupları daim qarşılıqlı fəaliyyət göstərir.

Ordunun silahlanmasına yeni daxil edilən silah və texnikanın öyrənilməsi və düzgün istismarını təmin etmək məqsədilə kadrların hazırlığına xüsusi diqqət yetirilir, təşkil edilən kurslarda hərbi qulluqçularımız müvafiq təhsil alır və öz bacarıqlarını təkmilləşdirirlər.

Ordunun zabit, gizir, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə komplektləşdirilməsi Müdafiə Nazirliyinin tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələri və kadr orqanları tərəfindən həyata keçirilir.

Məzunlara olan yüksək tələblər nəzərə alınaraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul imtahanlarında keçid balları xeyli artırılıb. Eyni zamanda prioritet yüksək biliyə, intellektual səviyyəyə, o cümlədən xarici dilləri bilən və kompüter bacarıqlarına malik abituriyentlərə verilir. Təhsil alan kursantların çöl-səhra vərdişlərinə və taktiki biliklərinə üstünlük verildiyi üçün, onlar elə birinci kursdan cəbhə xəttində yerləşən hərbi hissələrə staj keçməyə göndərilirlər. Məqsəd peşə praktikasının artırılması və gələcək xidməti vəzifələrinin icrası ilə əyani tanışlıqdır.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə şəxsi heyətə
# Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, kursantlar, çavuşlar, miçmanlar, əsgərlər və matroslar!

Sizi Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə təbrik edir, Vətən naminə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsinə müsbət təsir göstərdi və Azərbaycan Ordusunun şəxsi heyəti 100 illik yubileyini ruh yüksəkliyi, həmçinin qazandığı böyük nailiyyətlərlə qeyd edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurla gerçəkləşdirdiyi siyasət digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də əldə olunan möhtəşəm uğurlarla Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ali Baş Komandanımız qeyd etdiyi kimi, biz güclü ordu yaratmışıq.

Ordumuzun maddi-texniki təchizatı və döyüş qabiliyyətinin ən yüksək səviyyədə olduğunu döyüş meydanında sübut edə bilmişik!

2016-cı ilin aprel ayında Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları nəticəsində torpaqlarımızın bir hissəsi düşmən işğalından azad edildi.

Artıq həmin torpaqlara Azərbaycan vətəndaşları qayıdıb. O torpaqlara həyat qayıdıb və bunu Azərbaycan dövləti, Azərbaycan Ordusu etmişdir!

Keçirilən genişmiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini nümayiş etdirir, Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir. Xalq öz ordusuna inanır, gücünə güvənir. Şəhid ailələri, müharibə veteranları və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu, sizin məsuliyyətinizi daha da artırır.

Bu əziz gündə şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları əzəmətli bayram münasibəti ilə təbrik edirəm.

Əminliklə bildirirəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamı gücləndirəcək, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməyə hazır olacaq.

Bir daha hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Müdafiə naziri general-polkovnik Zakir Həsənov:

# Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır və qadirdir

**(Əvvəli 3-cü səhifədə)**

Hərbi təhsilin səviyyəsinin təkmilləşdirilməsi və ali təhsil müəssisələrində hazırlanan kadrlardan ölkənin müdafiəsində daha səmərəli istifadə olunması məqsədilə müxtəlif universitetlərlə qarşılıqlı əlaqə yaradılaraq əməkdaşlıq həyata keçirilir. Mütəmadi olaraq xüsusi təyinatlı təhsil müəssisələrində tədris prosesinin planlaşdırılmasının, həmçinin tədrisin vəziyyətinin və dərslərin keçirilməsinin yoxlanılması təşkil olunur.

Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə aparılan layihələr əsasında bəzi müdafiə təyinatlı məhsullar sınaqdan keçirilib və hazırda təkmilləşdirmə işləri davam etdirilir.

Şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi də Müdafiə Nazirliyi rəhbərliyinin əsas prioritetlərindəndir.

Müharibə şəraitində yaşayan bir ölkə üçün ən vacib məqamlardan biri ordunun şəxsi heyətinin və ümumiyyətlə vətəndaşların sağlam mənəvi-psixoloji duruma, ruh yüksəkliyinə, özünə inama və vətənpərvərlik hisslərinə hakim olmalarıdır. Bu gün Azərbaycan cəmiyyətində, ordumuzda məhz belə bir əhval-ruhiyyə mövcuddur. Bütün bunların nəticəsidir ki, xalqımız ordumuza istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir.

2016-cı ilin aprel ayında cəbhədə baş verən gərginlik zamanı yüzlərlə, minlərlə gənc, eyni zamanda xarici ölkələrdə yaşayan azərbaycanlı vətəndaşlarımız Müdafiə Nazirliyinə müraciət edərək erməni işğalçılarına qarşı döyüşə hazır olduqlarını bildirdilər.

Bu döyüş ruhunu yüksək səviyyədə saxlamaq məqsədilə ordumuzda ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolu və fəaliyyəti, dövlət və ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, milli ideologiyanın inkişafı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi dərindən öyrənilir və hərbi qulluqçular arasında təbliğ edilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlətimizin müstəqilliyinin və suverenliyinin qorunub saxlanması, qüdrətlənməsi uğrunda apardığı daxili və xarici siyasət, ordunun qüdrətli bir qüvvəyə çevrilməsi üçün fəaliyyəti, öz xalqına, torpağına məhəbbəti, ərazilərimizin erməni işğalından azad olunması naminə apardığı mübarizə daim təbliğ edilir, Azərbaycan Ordusunun qarşısında qoyduğu tapşırıqlar ordu rəhbərliyi və şəxsi heyətə çatdırılır.

Müdafiə Nazirliyinin digər dövlət orqanları ilə birgə tədbirlər planına əsasən, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması və aradan qaldırılması, insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafının istiqamətləri, qeyri-ənənəvi dini cərəyanların təbliğatının qarşısının alınması, dini radikalizmə qarşı mübarizə və digər mövzularda yüzlərlə tədbirlər həyata keçirilir.

Prioritet istiqamətlərdən biri də hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasıdır. Dövlətimizin diqqəti və qayğısı nəticəsində son illərdə Bakı, Gəncə və Naxçıvanda 1400-dək hərbi qulluqçu daimi mənzillə, ölkənin müxtəlif bölgələrində isə 2000-dək hərbi qulluqçu xidməti mənzillə təmin olunub. Silahlı Qüvvələrimizin şəxsi heyətinin 85 faizi yeni inşa edilən müasir hərbi şəhərciklərdə yerləşdirilib.

Qısa müddətdə, xüsusilə cəbhəboyu zonada, 40-dək yeni hərbi şəhərcik inşa edilərək istifadəyə verilib, hazırda 5 hərbi hissədə tamamlama işləri davam etdirilir. İlin sonunadək daha 4 yeni hərbi şəhərciyin inşa edilərək sona çatdırılması planlaşdırılır.

Bundan əlavə, Ali Baş Komandanın tapşırığına əsasən, yaxın vaxtlarda daha 500-dək hərbi qulluqçunun daimi mənzillə təmin olunması nəzərdə tutulub.

Stasionar və çöl şəraitdə yerləşən hərbi hissələrin, xüsusilə də ön xətdəki bölmələrin hərbi qulluqçularının sosial-məişət, əşya-əmlak və ərzaq təminatının yaxşılaşdırılması məqsədilə planlı surətdə müvafiq tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş normalara və təminat planına əsasən, hərbi hissələr mövsümə uyğun, əşya əmlakları ilə tam təmin olunub.

Relyefinə görə çətin keçilən ərazilər və yüksək dağlıq şəraitində yerləşən hərbi hissələrin şəxsi heyəti konservləşdirilmiş milli yeməklərlə təmin edilib. İçməli su mənbəyi olmayan yerlərdə yerləşən bölmələr və mövqelər isə, orada xidmət edən və döyüş növbətçiliyi aparan hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə gün ərzində bir nəfər üçün yeməklərin hazırlanmasına 2,5 litr, içmək üçün yay mövsümündə 2 litr, qış mövsümündə isə 1 litr qablaşdırılmış su ilə təmin edilib. Eyni zamanda döyüş mövqelərindəki postlara su xətlərinin çəkilməsi həyata keçirilib.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin sağlamlıq vəziyyətinin qorunması, xüsusilə ön xətdə yerləşən hərbi hissələrdə tibbi təminatın müasir tələblərə uyğun təşkili və yaxşılaşdırılması sahəsində kompleks tədbirlər icra edilib.

Qarnizonların ərazilərində poliklinikalar inşa edilib, hərbi hissələrdə, o cümlədən cəbhəboyu zonada müasir tələblərə cavab verən yeni avadanlıqlarla təchiz olunmuş onlarla tibb məntəqəsi tikilərək istifadəyə verilib.

Cəbhəboyu zonada müxtəlif istiqamətlərdə müasir tibbi avadanlıqla tam təchiz edilmiş və müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulmuş stasionar və mobil səhra hospitalları və səhra tibb qrupları yaradılıb. Ön xətdə yerləşən bütün hərbi hissələr zirehli ambulanslar ilə təmin olunub.

Bir sözlə, ordumuzun hərbi potensialını gücləndirmək üçün nə lazımdırsa, Azərbaycan dövləti onu edir. Biz müharibə şəraitində yaşayırıq və müharibə şəraitində yaşayan ölkə, ilk növbədə ordu quruculuğuna diqqət göstərməlidir. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yerdədir. Ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi və silahların modernləşdirilməsi üçün 2014-cü ildən başlayaraq hər il bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir və bundan sonra da dövlətimizin dəstəyi ilə bu addımlar davam etdiriləcəkdir.

Məhz bu səbəbdən bu gün tam əminliklə deyə bilərik ki, ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan Ordusu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrini dərhal və yüksək peşəkarlıqla yerinə yetirməyə hazır və qadirdir.

Bu əlamətdar bayramda mən bir daha şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları, hazırda düşmənlə təmas xəttində, döyüş növbətçiliyində, qarovul xidmətində, sülhməramlı qüvvələrin tərkibində, ölkəmizin xarici dövlətlərdəki nümayəndəliklərində xidmət edən şəxsi heyəti təbrik edir, onlara möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və xidmətlərində uğurlar arzulayıram.

Azərbaycan Ordusunun əldə etdiyi uğurların arxasında, heç şübhəsiz, ölkə Prezidenti, Ali Baş Komandanın gərgin əməyi və davamlı qayğısı dayanır. Bu münasibəti daim öz üzərində hiss edən Azərbaycan Ordusunun şəxsi heyəti və öz adımdan cənab Ali Baş Komandanı yubiley münasibətilə təbrik edirəm.

Əmin edirəm ki, Azərbaycan Ordusunun bütün şəxsi heyəti göstərilən etimadı daim doğrultmağa, torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzün təmin edilməsinə tam hazırdır. Qələbə əzmi ilə xidmət edən ordumuz xalqımızı gələcəkdə də əldə edilən uğurlar və nailiyyətləri ilə daim sevindirəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

1918 Azərbaycan Ordusu - 100 2018

# Heydər Əliyev adına Hərbi Liseyin 20 illik yubileyi və 18-ci buraxılışı münasibətilə tədbir keçirilib



*İyunun 23-də Heydər Əliyev adına Hərbi Liseyin 20 illik yubileyi və 2018-ci il buraxılışı münasibətilə tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətindən bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə mərasimə hazırlıq barədə raport verib.

Ali Məclisin sədri kursantları salamlayıb.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət himnini ifa ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 20 illiyi və 18-ci buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri və tədbir iştirakçılarını təbrik edərək deyib: Tarixən Azərbaycan dövlətçiliyinin əsas mərkəzlərindən biri olan Naxçıvanda görkəmli siyasi və hərbi xadimlər yetişmişdir. Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətçiliyinin bərpasına Naxçıvandan başlanıldığı kimi, milli ordu quruculuğuna da bu qədim diyardan başlanılmış, tarixi qərarlar qəbul edilmişdir. 20 il bundan əvvəl Ümummilli Liderimizin Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaradıldı. Ümummilli Liderimiz özü bu barədə deyirdi: "Sovet İttifaqı mövcud olan zaman yaratdığımız hərbiləşdirilmiş orta məktəb Azərbaycanın gələcəyinə baxış idi. Mən hələ Sovet dövründə müstəqillik haqqında düşünüb hərbi məktəb yaratmışdım. İllər keçəcək, Naxçıvan filialı haqqında qəbul etdiyimiz qərarın da nə qədər vacib, əhəmiyyətli olduğu bir daha təsdiq olunacaqdır".

Ali Məclisin sədri deyib: "1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan Hərbi liseydə bu gün 572 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla, ötən 20 ildə Hərbi liseyi 3 minə yaxın kursant bitirmişdir. Hazırda onlardan 1600-dən çoxu Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində məqsədyönlü tədbirlər görülür. Ordu, birləşmə və hissələrin maddi-texniki təminatı gücləndirilir, silahlanmaya ən müasir döyüş texnikaları daxil edilir. Bu bir reallıqdır ki, ordunun gücü, onun döyüş qabiliyyəti yalnız güclü maddi-texniki baza və silah təminatı ilə deyil, həm də komandan-zabit heyətinin hərbi hazırlığı və vətənpərvərliyi ilə ölçülür. Vətənpərvər və peşəkar zabit heyəti olmadan nizami və mütəşəkkil ordu yaratmaq, döyüş tapşırıqlarını uğurla yerinə yetirmək mümkün deyil. Hər bir kursant hərbi təhsil sistemini mükəmməl mənimsəməli, bilik və təcrübəsini artırmalı, müasir silahları, hərbi texnikanı bacarıqla idarə etmək vərdişlərinə yiyələnməlidir."



"Vətənə xidmətin əsasında dövlətçiliyimizə və dəyərlərimizə sədaqət dayanır. Milli dəyərlərimizi, tariximizi və qəhrəmanlıq ənənələrimizi öyrənməli, hər an Vətənin müdafiəsinə hazır olmalı, Azərbaycan zabiti adının şərəf və məsuliyyətini öz xidmətinizlə doğrultmalısınız", - deyən Ali Məclisin sədri yubiley və buraxılış münasibətilə liseyin bütün kursantlarını və məzunlarını bir daha təbrik edib, gələcək təhsildə və hərbi xidmətdə onlara uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Elman Orucov çıxış edərək deyib ki, Hərbi liseydə təhsil alan 600-ə yaxın kursantın təhsili, hərbi hazırlığı və tərbiyəsi ilə məşğul olan zabit, müəllim və hərbi rəhbər-tərbiyəçilərdən 1-i elmlər doktoru, 2-si isə fəlsəfə doktorudur. "Kursantların təhsilində hərbi hazırlıq xüsusi yer tutur, hərbi fənlər tədris olunur. Hər il olduğu kimi, bu il də liseyin kursantları beynəlxalq, ölkə, muxtar respublika və Əlahiddə Ümumqoşun Ordu səviyyəli idman yarışlarında uğurla iştirak ediblər. Hərbi liseyin kursantı Məmmədov Rəvan Surxay oğlu "Qaydasız döyüş" üzrə Dünya çempionu olub. Liseydə müəllim və zabit heyətinin üzərinə düşən ən mühüm vəzifələrdən biri də kursantların milli, mənəvi və tarixi dəyərlərimizə sadiqlik ruhunda tərbiyəsinə nail olmaqdır. Kollektiv liseydə təhsil-tərbiyə işini müasir tələblər səviyyəsində qurur. Zabit, müəllim və kursant heyəti ulu öndər Heydər Əliyevin adını daşıyan hərbi təhsil müəssisəsində çalışmaqdan, oxumaqdan iftixar hissi keçirir və bu ada layiq olmağa çalışır."

Tədbirdə çıxış edən valideyn Sevinc Səfərova deyib: "Bu gün hər bir valideyn üçün çox sevincli və qürurlu gündür. Çünki övladlarımız Heydər Əliyev adına Hərbi Liseyi bitirirlər. Təhsil aldıqları müddətdə onlara hərtərəfli qayğı göstərilib. Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan liseydə ən müasir sosial-məişət şəraiti, tədris bazası yaradılıb. Təlim-tərbiyə Ulu Öndərimizin arzuladığı kimi həyata keçirilir. Torpaqlarımızın 20 faizdən çoxunun düşmən tapdağında olduğunu nəzərə alsaq, məktəbin doğma Azərbaycanımız üçün necə böyük önəm daşıdığını daha aydın başa düşərik. Heydər Əliyev adına Hərbi Liseyin vətənpərvər, dövlətə sədaqətli gənclər yetişdirməkdə rolu əvəzsizdir. Valideyn kimi arzumuz və tələbimiz odur ki, övladlarımız göstərilən etimadı bundan sonra da mükəmməl ali hərbi təhsil almaqla, şərəfli xidmət yolu keçməklə doğrultsunlar. Hər bir valideyn fəxr edir ki, Hərbi liseyin nümunəvi hərbi təhsil müəssisəsinə çevrilməsi Ali Məclis sədrinin adı ilə bağlıdır. Göstərilən qayğı nəticəsində Hərbi lisey böyük inkişaf yolu keçib. Fəxr edirik ki, övladlarımız liseydə əsl vətəndaş kimi yetişiblər. Valideyn üçün bundan böyük səadət yoxdur."

Sevinc Səfərova valideynlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə minnətdarlığını bildirib.



Heydər Əliyev adına Hərbi Liseyin III kurs məzun kursantı Novruz Qasımov çıxış edərək deyib: "Bu gün kursantların həyatında əlamətdar gündür. Çünki biz ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Hərbi Liseyi bitirib Ali Hərbi Məktəbin kursantı adına layiq görülmüşük. Üçillik lisey həyatı bizim gələcəyin zabiti, vətən müdafiəçisi kimi formalaşmağımızda mühüm rol oynadı. Əmin etmək istəyirik ki, Ulu Öndərimizin adını daşıyan hərbi liseyin şərəfini daim uca tutacaq, qarşıdakı təhsil illərində də yüksək biliyimiz və intizamımızla öndə gedəcəyik. Liseydə qazandığımız bilik və bacarıqlara güvənərək yalnız irəli baxırıq. Ordumuza bilikli, peşəkar və vətənpərvər zabitlər gərəkdir. Bu məqsədə nail olmaq üçün əzmlə çalışacaq, ən əsası Vətənimizə layiqli övlad olacaq, peşəkar zabit kimi ölkəmizin ərazi bütövlüyünün müdafiəsi naminə bütün qüvvələrimizi səfərbər edəcəyik. Əmin edirik ki, "And Yerimiz Vətən" bizim kimi oğulların çiynində daim yüksələcəkdir.

*Tanrım verən ömür sənindir, Vətən,*
*Sinənə daş dəysə, dağ-dağ olaram!*
*İrili-xırdalı yaralarına*
*Sarğı əvəzinə yarpaq olaram!*

*Bayrağın bir daha göylərdən enməz,*
*Güvəndiyin əsgər yolundan dönməz.*
*Kölgəndə yağılar kölgələnəmməz,*
*Sərhəd dirəyinə bayraq olaram!"*

Sonra Ali Məclisin sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Kursant Elçin Abbasov təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurub.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Liseyin müəllimləri ilə görüşən Ali Məclisin sədri deyib: "Kursantların yetişməsində, yaxşı təhsil almalarında müəllimlərin böyük əməyi var. Liseydə təhsilin və hərbi hazırlığın düzgün qurulmasının nəticəsidir ki, buranı bitirən kursantlar ali hərbi məktəbləri də uğurla başa vururlar. Eyni zamanda, kursantlar Azərbaycan Ordusunda zabit kimi yaxşı xidmətləri və qəhrəmanlıqları ilə seçilirlər. Ali Məclisin sədri bütün bunlara görə liseyin müəllimlərinə təşəkkür edib, onlara işlərində uğurlar arzulayıb."

Hərbi liseyin müəllimi Məryəm Vəlibəyova kollektiv adından minnətdarlıq edərək deyib: "Naxçıvan Muxtar Respublikası gündən-günə inkişaf edir, hər bir sahəyə qayğı göstərilir. Heydər Əliyev adına Hərbi Lisey də hərtərəfli qayğı ilə əhatə olunub. Qısa zaman kəsiyində lisey böyük inkişaf yolu keçib, kursantların sağlamlığı, yaşayışı, fiziki hazırlığı üçün hərtərəfli şərait yaradılıb. Bundan sonra da Ulu Öndərimizin adına layiq çalışacaq və Azərbaycan Ordusunun hərbi kadrlarla təminatına öz töhfəmizi verəcəyik. Günnüt əməliyyatının uğurla başa çatması hər bir azərbaycanlını çox sevindirir və bizim qəlbimiz fərəh hissi ilə döyünür. Bu, Azərbaycan Ordusunun gücünü göstərir. Biz inanırıq ki, işğal altında olan torpaqlarımız da düşməndən tezliklə azad olunacaq və Azərbaycanın üçrəngli bayrağı həmin torpaqlarda dalğalanacaqdır."

Məryəm Vəlibəyova liseyin yaranmasının 20-ci ildönümü və 18-ci buraxılışı münasibətilə Ali Məclisin sədrinə kollektiv adından xatirə hədiyyəsi təqdim edib.

Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin Hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib.

Sonra Ali Məclisin sədri yeməkxanada olub, kursantların qidalanması ilə maraqlanıb.

Aşpaz Sədaqət Nəcəfova minnətdarlıq edərək deyib: "Liseydə kursantların qidalanması üçün hər cür şərait var. Onların sağlamlığının qayğısına qalınır. Yaradılan şərait bizi də qürurlandırır. Çalışırıq ki, dövlətimizin göstərdiyi etimada öz işimizlə cavab verək. Kursantlarla fəxr edir və onlara övladımız kimi qayğı göstəririk."

1918 Azərbaycan Ordusu - 100 2018

# Bayramınız mübarək, Azərbaycan əsgəri!

*Azərbaycan xalqı zəngin təbii sərvətlərə, əlverişli geostrateji mövqeyə malik olduğuna görə minilliklər boyu öz azadlığı və dövlətçiliyi uğrunda mübarizə aparmağa məcbur olub. Hər zaman güclü dövlətlərin təzyiqlərinə, hərbi təcavüzünə məruz qalan Azərbaycan 100 il əvvəl qədim və zəngin hərbi ənənələrə əsaslanaraq öz müstəqil dövlətinin ordusunu yaratdı. Azərbaycan Ordusu XX əsrin əvvəllərində xalqımızın yüksəliş dövrünün məntiqi nəticəsi kimi meydana çıxdı. Tez bir zamanda ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr formalaşdırıldı. Dövlətçilik tariximizdə mühüm rol oynayan milli ordu quruculuğu siyasətinin əsasının qoyulması, dövrün ağır şərtləri daxilində Azərbaycan Xalq Cümhuriyyətinin və onun nizami ordusunun formalaşdırılmasının 100 illiyi ərəfəsində əməkdaşlarımız hərbi hissələrdə olub, əlamətdar hadisə ilə əlaqədar zabit və əsgərlərimizin fikirlərini öyrəniblər.*





Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyi ərəfəsində "N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölmələrindən birinə ezam olunduq. Səngərdə Vətənin müdafiəçiləri ilə həmsöhbət olub, onların düşüncələrini, təbrik sözlərini qələmə aldıq. Xatırladım ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bir müddət sonra - 1918-ci ilin 26 iyununda Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə təməli qoyulan müasir Azərbaycan Ordusu çətin, əzablı amma şərəfli bir inkişaf yolu keçmişdir. Silahlı Qüvvələrin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun ən mühüm nailiyyətlərindən biridir. Ulu öndər Heydər Əliyevin bir-birinin ardınca həyata keçirdiyi uğurlu islahatlar ordu quruculuğuna güclü təkan verdi, maddi-texniki təminatı xeyli gücləndirdi, vahid komandanlıq sistemini formalaşdırdı, peşəkar kadrların hazırlanmasına stimul yaratdı.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun potensial imkanlarının genişləndirilməsi, daha güclü, müasir silahlarla təchiz edilməsi və peşəkar hərbi kadrların hazırlanması sahəsində işlər uğurla davam etməkdədir. Azərbaycan Ordusu 100 illik yubileyində artıq dünyada sözünü deyən güclü orduya çevrilib. Son illər döyüş təcrübəsinin artırılması sahəsində həyata keçirilən irimiqyaslı təlimlər, aprel qələbəsi, Günnüt kəndinin işğaldan azad olunması bir daha sübut etdi ki, müstəqilliyimiz, ərazilərimiz qüdrətli, yenilməz ordumuzun əsgərləri tərəfindən inamla qorunur. Xalqın güvənci ilə gücünə güc qatan ordumuz ərazi bütövlüyümüzü tez bir zamanda bərpa edəcək.

Torpaqlarımızı inamla qoruyanlar da bayram sevincini yaşayır, əlində silah Vətən keşiyində durmaqdan qürurlanırlar. Əsgərlər Elburus Fətəliyev və Əlihəsən Məmmədovla elə səngərdəcə söhbətləşirəm. Döyüş növbəsindən qayıdırdılar.

Əsgər Elburus Fətəliyev hərbi xidmətə Quba rayonundan çağırılıb. Bu günlərdə xain düşmənin təxribata əl atmaq istəyəciyini vurğulayır:

- Bayram günlərində düşmən atəşkəsi daha sıx pozur. Ona görə də daha diqqətli oluruq. Bir gənc üçün ən sevindirici haldır



ki, Vətəninə əsgər olasan. Bu gün isə sevincimiz ikiqatdır. Xidmətimiz ordumuzun 100 illik yubiley ərəfəsinə təsadüf edib. Bu bayramı hər kəs ürəyində könül xoşluğu ilə qeyd edir, lakin bizim sevincimiz daha böyükdür. Çünki ordu sıralarındayıq, səngərdə düşmən qarşısında dayanmışıq, torpaqlarımıza keşik çəkirik. Başda Ali Baş Komandanımız, Müdafiə nazirimiz olmaqla, bütün komandirlərimi, silahdaşlarımı və xalqımızı bu bayram münasibətilə təbrik edirəm. Əmin olsunlar ki, hər birimiz düşmən qarşısında mətin dayanmışıq. Bizə olan etimadı doğrultmaq, şanlı ordumuzun adına layiqli əsgər olmaq üçün var qüvvəmizlə xidmət edirik. Döyüş əmri ilə qarşıdakı düşməni məhv edib, bayrağımızı işğal altında olan torpaqlarımızda dalğalandırmağa hər an hazırıq.

- Uşaqlıqdan əsgər olmaq, düşməni məhv etmək arzusu ilə böyümüşük, - Əlihəsən Məmmədov söhbətə qoşulur. O, hərbi xidmətə Bakı şəhərindən çağırılıb. - Əsgər olmaq hər birimizin övladlıq borcudur. Bu gün səngərdə Vətən keşiyində dayandığım üçün fərəhlənirəm. Xidmət müddətində elə məqamlar olur ki, onlar bizim xatirələrimizdə əbədi olaraq tarixləşir. Ordumuzun yubiley bayramı da bu cür yaddaqalan, tarixləşən hadisələrdən biridir. Hamı kimi mən də qürurluyam ki, ordumuzun 100 illiyinin əsgəri oldum. Bu mənim həyatımda silinməz tarix olacaq. Xidmətimiz uğurla davam edir. Bütün təminatlarımız qaydasında, şəraitmiz də yüksəkdir. Hərbi sirləri dərindən öyrənib düşməni hər an məğlub etməyə hazır əsgərlər kimi formalaşmışıq. Bizim məqsədimiz xalqımıza daha böyük bayram sevincini - Böyük Qələbəni yaşatmaqdır. Ali Baş Komandanımızın əmri ilə düşməni yerlə yeksan edib, doğma torpaqlarımızı işğaldan azad etməyə hazırıq. Mən də öz növbəmdə komandirlərimi, əsgər yoldaşlarımı bayram münasibətilə təbrik edirəm. Bu yaşa kimi bir çox bayramlar qeyd etmişəm. Lakin bu bayramın yeri daha xüsusidir. Çünki ordu hər birimizin qürur mənbəyidir. Biz ailədə, məktəbdə Vətən sevgisi, orduya rəğbətlə tərbiyə olunmuşuq. Orta məktəbdə hər kəsin ən sevdiyi, arzusunda olduğu peşə hərbçi olmaq olub. İndi daha yaxşı anlayıram ki, bu peşə, həqiqətən də, ən şərəfli vəzifədir.

Əlihəsənin dedikləri könlümə sığal çəkir. Silah və texnikamızın gücü ilə yanaşı, əsgərlərimizin döyüş ruhunun da yenilməz olduğunu göz önünə sərir, ölkəmlə, ordumla, əsgərlərimizlə bir daha fəxr edirəm. İnanıram ki, bu fərəh hər bir vətəndaşımızın sinəsini qabardır.

Vətən oğullarından daha biri ilə həmsöhbət oluram. Əsgər Elxan Eyyubov hərbi xidmətə Saatlı rayonundan çağırılıb.

- İlk dəfə silahı əlimə alanda hər şey çətin gəlsə də, indi silahımın xüsusiyyətlərini yaxşı öyrənmişəm, atıcılıq vərdişləri qazanmışam. Hər döyüş növbətçiliyinə çıxanda silahımla baş-başa qalır, bir gün düşməndən etdiklərinə görə qisas alacağıma söz verirəm. Vətənə bağlılığım



və düşmənə olan nifrətim növbətçilik zamanı ayıq-sayıq olmağıma köməklik edir. Səngərdə xidmət etməkdən qürur duyuram. Bütün həmyaşıdlarımı Vətənin keşiyində qeyrətlə, qorxmadan dayanmağa səsləyirəm. Bu gün Vətəni anası bilən hər kəs Ali Baş Komandan İlham Əliyevin əmrini gözləməli, əbədi və əzəli torpaqlarımız uğrunda son damla qanına qədər vuruşmalıdır. Mən də digər əsgər yoldaşlarımın təbriklərinə qoşularaq şərəfli peşə sahiblərinin bayramını təbrik edirəm. Yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq, hər kəs bu bayramı sevinclə qeyd edir. Çünki bu bayram xalqımızın güvənc yeri olan ordumuzun bayramıdır.

Cəlilabad rayonundan ordu sıralarına çağırılan əsgər Sərxan Məhərrəmovla həmsöhbət oluram. Qarşıdan gələn bayram münasibəti ilə təbriklərə qoşularaq bildirdi:

- Vətən... Vətən ana qədər sevimli olmalı, ana namusu kimi qorunmalıdır. Biz Vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, obamız bu torpaqlardadır. Canını xalqı, milləti, Vətəni üçün qurban verən şəhidlərimiz bu torpaqlarda uyuyur. Əlbəttə ki, düşmənlə təmas xəttində əldə silah Vətən müdafiəçiləri ilə bir sırada olduğum üçün sevincliyəm, qürurluyam. Bu gün ordumuzun yaranmasının 100 illiyi tamam olur. Bu münasibətlə hər bir silahdaşımı, bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm. Digər yoldaşlarım kimi mən də torpaqlarımızın keşiyində inamla dayanmışam. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə düşmən tapdağı altında qalan torpaqlarımızı azad edərək millətimizə Böyük Qələbə yaşatmağa hər an hazırıq".

Digər mövqedə düşməni müşahidə edən, Füzuli rayonundan hərbi xidmətə çağırılan əsgər Səlim Məmmədova yaxınlaşıram. Söhbət əsnasında atası Nazim Məmmədovun Laçın istiqamətində gedən döyüşlərin iştirakçısı olduğunu öyrənirəm.

- Mən də digər silah yoldaşlarım kimi, Azərbaycan Ordusunun şəxsi heyətini ordumuzun yaranmasının 100 illiyi münasibəti ilə təbrik edirəm. Onların hər birinə çətin, lakin şərəfli yolda uğurlar, müvəffəqiyyətlər diləyirəm. Ordu sıralarında xidmət keçmək biz gənclərin namus borcudur. Bu borcun öhdəsindən layiqincə gəlib ailəmizin yanına başıuca qayıtmaq üçün nümunəvi xidmət edirik. Həm gənc kimi, həm də ordu sıralarında dayanan əsgər kimi ordumuzla qürur duyuram. Tezliklə Ali Baş Komandanımızın rəhbərliyi altında illərdir həsrətini çəkdiyimiz gözəl diyarlarımızı azad edəcək, yenidən Kəlbəcərdə, Laçında, Xankəndidə... toy-bayram sədalarını səsləndirəcəyik".

**(Ardı 7-ci səhifədə)**

1918 Azərbaycan Ordusu - 100 2018

# Bayramınız mübarək, Azərbaycan əsgəri!

(Əvvəli 6-cı səhifədə)

**Əsgər Elşən Mustafayev:**

- Bu gün ordumuzun 100 illiyini torpaqlarımızın müdafiəsində - barıt qoxulu səngərlərimizdə qeyd edirəm. Əsgər Vətənin şah damarıdır. Vətənsiz əsgər, əsgərsiz Vətən təsəvvür etmək olmaz. Ordumuzun təməlini təşkil edən vətənpərvər oğullarımızın olduğu müddətdə bu Vətən var. Əsgəri xidmətim həyatımın ən yaddaqalan günləridir. Kiçik yaşlarımdan formanı geyinəcəyim günün həsrətindəydim. Mən də fəxrlə “100 yaşlı müasir ordunun əsgəriyəm”, - deyirəm. Tamhüquqlu əsgər kimi Azərbaycan Ordusu sıralarına daxil olarkən torpaqlarımızın bütövlüyünü qoruyacağıma and içmişəm. Ali Baş Komandanımız döyüş əmri verərsə, ordumuz tarixi torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Qısa müddətdə işğal altında olan Dağlıq Qarabağımızda üçrəngli bayrağımız dalğalanacaq.

**Əsgər Cahangir Məmmədov:**

- Digər silah yoldaşlarım kimi, mən də xalqımızı ordumuzun 100 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Bu gün müstəqilliyimizi və ərazi bütövlüyümüzü qorumağa qadir olan ordunun əsgəri olmaqdan



qürurlanıram. Hər an düşmənin təxribatlarının qarşısını almağa və ona layiqli cavab verməyə hazırıq. Tezliklə Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə illərdir həsrətini çəkdiyimiz doğma el-obamızı düşmən tapdağı altından azad edərək, xalqımıza Böyük Qələbə sevincini yaşadacağıq. Arzu edirəm ki, qarşıdan gələn bütün bayramlarımızı Kəlbəcərdə, Laçında, Şuşada… qeyd edək.

**Əsgər Cəlal Hacıyev:**

- Bu gün mən və qardaşım regionun ən güclü ordusunun əsgəri olmağımızla qürurluyuq. Səngərdə dayanaraq yağı düşmənimizi nəzarətdə saxlamağa, onların istənilən təxribatlarının qarşısını almağa hazırıq. Səngərdə xidmət etmək ən şərəfli vəzifədir. Bu şərəfli yolda birgə addımladığım əsgər yoldaşlarımı, komandirlərimi və dəstəyini bizdən heç zaman əsirgəməyən xalqımızı ordumuzun yaranması-



nın 100 illiyi münasibəti ilə təbrik edir, tez bir zamanda şəhidlərimizin qisasını almağı, düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyi arzulayıram.

**Gizir Elnur Əzizov:**

- Xalqımız ordumuzun dayağı, ordumuz müstəqilliyimizin, azadlığımızın və ərazi bütövlüyümüzün qorunub saxlanılmasının qarantıdır. Ordu sıralarında xidmət edən hər kəs kimi mən də seçdiyim peşədən qürurlanır, cəsur, mərd oğullarla bir arada Vətən torpaqlarına keşik çəkməyimlə fəxr edirəm. Bütün Azərbaycan xalqını, hər bir hərbi qulluqçunu ordumuzun yaranmasının 100 illiyi münasibəti ilə təbrik edirəm. Növbəti ildönümünü Şuşada İsa bulağında, Laçında Şəlvə çayının ətrafında, Xankəndidə…. qeyd etməyi arzulayıram.

**Baş leytenant Elnur Cəbrayılov:**

- Tarixdən yaxşı bilirik ki, 100 il əvvəl müstəqil Azərbaycan dövlətinin və onun ordusunun əsası qoyuldu. Müstəqilliyi qazanmaq nə qədər asandırsa, onu qoruyub saxlamaq bir o qədər çətindir. Əsrin əvvəllərində yaranan dövləti 23 aydan artıq qoruyub saxlamaq mümkün olmadı. Əsrin sonlarında müstəqilliyinə yenidən qovuşan Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin sayəsində dövlət və ordu quruculuğu istiqamətində mühüm addımlar atdı və 100 yaşlı Azərbaycan Ordusu çoxdan arzulanan səviyyəyə çatdı. Bu gün zabiti olduğum Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin orduları ilə müqayisə etmək olar. Hazırda Azərbaycan Ordusunun zabit və əsgəri ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi-texnikadan istifadə etməyə, düşmənlə istənilən döyüşdən qalib çıxmağa qadirdi. Bu gün Azərbaycan Ordusu inkişaf və tərəqqi dövrünü yaşayır. 2016-cı ilin aprel zəfəri Azərbaycan Ordusunun qüdrətini bir daha sübut edərək göstərdi ki, bu ordu nəinki ölkəmizin ərazi bütövlüyünü mənfur düşməndən qorumağa, həm də işğal olunmuş ərazilərimizi qısa müddətdə düşməndən azad etməyə qadirdi. Ordumuzun 100 illik yubileyinə Qələbə yaraşır. O qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımıza hədiyyə etmək əzmindədi. Arzum budur ki, yaxın gələcəkdə torpaqlarımızı işğaldan azad edək və üçrəngli bayrağımızı Qarabağda dalğalandıraq. Bayramınız mübarək!

**Əsgər Əliəşrəf Məmmədyarov:**

- Bu gün mən 100 yaşlı Azərbaycan Ordusunun əsgəriyəm. Belə bir qüdrətli orduda xidmət etməkdən duyduğum qüruru sözlərlə ifadə etməyə çətinlik çəkirəm. Bir məsələni anlayıram ki, torpaqlarının bir hissəsi işğal altında olan ölkənin vətəndaşı kimi, əsgəri kimi mənim üçün döyüş bitməyib, əksinə, amalım nəfəs aldığım hər saniyə döyüşdü. Əgər torpaq bizi yedirib-içirirsə, öz nemətləri ilə bəsləyirsə, deməli, bizim də torpağa verəcəklərimiz var. Bu, borcdur. Borcu vaxtında və əvəzsiz ödəmək isə bir şərəf və qürur məsələsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun əsgəri olaraq Vətən, torpaq uğrunda böyük mübarizələr aparmağa, canımızı fəda et-



məyə şərəf və qürurumuzu qorumağa hazırıq. 100 yaşın mübarək, Azərbaycan Ordusu!

**Əsgər Araz Hacıyev:**

Azərbaycan dövlətinin vətəndaşı, Azərbaycan Ordusunun əsgəri olaraq anlayıram ki, Vətən bizə əmanətdir. Əgər bu gün silaha sarılmışıqsa və bu silahdan Vətənin qorunması üçün istifadə



ediriksə, bu, bizim şərəf yolumuzdur. Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov və digər şəhidlərimizin keçdiyi şərəfli həyat yolu biz əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Qəhrəmanlarımız tərəfindən keçilən bu yolu rəhbər tutaraq döyüş ruhuna köklənən Azərbaycan əsgəri olaraq deyə bilərəm ki, qazandığımız uğurların davamı gələcək. Öz Vətənimizdə öz torpağımızı qorumaq uğrunda çarpışırıq deyə, istənilən düşməndən qat-qat güclüyük. Ali Baş Komandanımıza, Azərbaycan Ordusunun gücünə arxalanaraq əminliklə deyə bilərəm ki, ərazi bütövlüyümüzü tezliklə təmin edəcəyik. Bütün silahdaşlarımı əziz bayram münasibətilə təbrik edirəm!

**Əsgər Tofiq İdrisli:**

- Torpaqlarımızın azadlığı uğrunda savaşa daim hazır olan döyüşçü kimi formalaşmaq üçün hərbi bilikləri dərindən mənimsəyir, üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdən ötrü var qüvvəmlə çalışıram. Azərbaycan Ordusu aprel zəfərindən, Günnüt qələbəsindən sonra Böyük Qələbəyə köklənib. Lələtəpə və Talış yüksəkliklərinin, Günnüt kəndinin işğaldan azad edilməsi Azərbaycan Ordusunun qüdrətinin təsdiqidir. Ordumuz torpaqlarımızı işğaldan azad edəcək. İnanıram ki, qələbələr Böyük Qələbə ilə tamamlanacaq.

**Əsgər Vüsal Quliyev:**

- Orta məktəbdə oxuyanda tarix fənninə böyük həvəsim, marağım vardı. Dərsliklərlə kifayətlənməzdim, əlavə ədəbiyyatları da maraqla oxuyardım. Azərbaycan Xalq Cümhuriyyəti, onun ordusu haqqında xeyli məlumatım vardı. Bu gün o ordunun yaranmasının 100 illiyidi. Tam artilleriya generalları Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin, eləcə də digər sərkərdələrin başladığı müqəddəs iş bu gün uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyiylə qurucusu ulu öndər Heydər Əliyev olan ordumuz daha da güclənməkdədir. Biz bu ordunun əsgərləriyik. Ordumuzun 100 illiyinə görə qürurluyuq, ordumuzun gücünə, qüdrətinə görə qürurluyuq, Ali Baş Komandanın orduya diqqət və qayğısına görə qürurluyuq.

Qəzetimizdə "Səngərləri sərhədlərə köçürəcəyik" sərlövhəli



məqalə dərc edilmişdi. Bizim adımızdan deyilən bu fikir, həqiqətən, xidmət amalımızdı. Ordumuzun 2-ci 100 illiyinə də məhz bu amalla başlayırıq...

**Əsgər Ruslan Səfiyev:**

- Babam sabiq SSRİ-nin, atam müstəqil Azərbaycan Ordusunda xidmət edib. Hər ikisi Qarabağ müharibəsi iştirakçısıdı. Onların söhbətlərindən, xatirələrindən öyrənmişəm müharibənin nə olduğunu. 2016-cı ilin aprelində babam da, atam da döyüşlərə getmək istədi, icazə vermədilər.

Babam “Açıq qapı” günündə hərbi hissəmizə gəlmişdi. Mənə və əsgər yoldaşlarıma dediklərini unutmamışam: "Sovet ordusunda belə şərait yoxuydu. Siz xoşbəxtsiniz ki, öz Vətəninizdə, öz ordunuzda, həm də belə təchiz olunmuş orduda xidmət edirsiniz". Biz, həqiqətən, xoşbəxtik. Böyük Qələbə xoşbəxtliyini də yaşamaq istəyirik. Ordumuzun 100 illik yubileyində bu istəyimiz daha da dönməzləşib.

**Əsgər Əhməd Salahov:**

- Atam Ağdamdandı. Orda doğulub, orda böyüyüb, orda yaşayıb, orda döyüşüb, ordan köçün düşüb. Ağdamı görməmişəm. Ürəyimdə bir Ağdam nisgili var. Varlığım qədər inanıram ki, 100 ilin ordusunun bu əsgərləri - sağımızdakı-solumuzdakı əsgərləri göstərir - bizim ailə kimi minlərlə qaçqının həsrətinə son qoyacaq. Mən də bu həsrəti bitirəcək əsgərlərin sırasında olmaq istəyirəm.

Komandirlərimiz, zabitlərimiz də deyir, özümüz də görürük ki, ordumuz ən müasir döyüş texnikalarıyla, atıcı silahlarla yüksək səviyyədə təchiz olunub, şəxsi heyət yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. Hər birimiz Ali Baş Komandanın, Müdafiə nazirinin tələblərini, göstərişlərini, tövsiyələrini böyük məsuliyyətlə yerinə yetiririk. Ordumuzun 100 illiyini böyük ruh yüksəkliyi ilə qarşılayırıq. Xalq bizə güvənir, inanır ki, torpaqlarımızı işğaldan azad edəcəyik. Bu 100 ilin ovqatıyla əsgər yoldaşlarımın adından deyirəm ki, bəli, biz torpaqlarımızı tezliklə işğaldan azad edəcəyik!

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



# Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib

Bu il Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü tamam olur. Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu strategiyasının uğurla davam etdirilməsi Azərbaycan Ordusunun gücünü artırıb, Silahlı Qüvvələrimiz mühüm təşkilatlanma və inkişaf yolu keçib. Ordumuzun döyüş qabiliyyəti və maddi-texniki bazası xeyli möhkəmlənib. Naxçıvan Muxtar Respublikasında da bu sahədə ardıcıl tədbirlər görülüb, ordu, birləşmə və hissələr müasir xidmət şəraiti ilə təmin olunub, etibarlı müdafiə sistemi yaradılıb. Muxtar Respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və yenidən qurularaq istifadəyə verilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətindən bildirilib ki, iyunun 23-də - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü ərəfəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri şəxsi heyəti salamlayıb, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi münasibəti ilə əsgər və zabitləri, onların timsalında Muxtar Respublikadakı ordu, birləşmə və hissələrin bütün şəxsi heyətini təbrik edərək deyib: "1918-ci il mayın 28-də elan olunan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bir ay sonra - iyunun 26-da Azərbaycan Ordusunun yaranması haqqında qərar qəbul etmişdir. Azərbaycan Sovetlər Birliyinin tərkibində olduğu dövrdə isə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ilk hərbi məktəb yaradılmış, ixtisaslı hərbi kadrların hazırlanmasına başlanmışdır. Bu məktəbin yetirmələri sonrakı dövrdə müstəqil Azərbaycanın Silahlı Qüvvələrində xidmət edərək ordu quruculuğu işinə öz töhfələrini vermişlər. Ümummilli liderimiz Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən 4 gün sonra - sentyabrın 7-də Naxçıvan Muxtar Respublikasının ərazisinin müdafiəsi və hərbi hissələrin vahid rəhbərlik altında birləşdirilməsi ilə bağlı qərar qəbul etmiş, Müdafiə Komitəsi yaradılmışdır. Müstəqillik illərində Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində kompleks tədbirlər görülmüş, Azərbaycan Silahlı Qüvvələri mühüm təşkilatlanma və inkişaf yolu keçmişdir."

Ali Məclisin sədri deyib: "Bu gün ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu sahəsində mühüm işlər görülür, müasir silah-sursatlar alınır, ordumuzun döyüş qabiliyyəti artırılır. Görülən işlərin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusu hesab olunur. Naxçıvan Muxtar Respublikasında da Ümummilli Liderimizin ordu quruculuğu sahəsində başladığı işlər uğurla davam etdirilmiş, Müdafiə Komitəsindən Əlahiddə Ümumqoşun Orduya qədər böyük inkişaf yolu keçilmişdir. Bu gün muxtar respublikada torpaqlarımızı etibarlı müdafiə edən və işğal altında olan torpaqlarımızı azad etməyə qadir güclü ordu formalaşıb. Bütün bunlar asan başa gəlməyib. Şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, silah-sursat təminatı, əsgər və zabitlərin xidmət və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Hər il yeni yaşayış binaları tikilir, hərbi hissələr yenidən qurularaq istifadəyə verilir. Bu gün istifadəyə verilən hərbi hissə də muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərin davamıdır."

Ali Məclisin sədri yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunacağına, şəxsi heyətin bundan sonra da hər an torpaqlarımızı azad etməyə hazır olacağına əminliyini bildirib, onlara xidmətdə uğurlar arzulayıb.

Zabit Ceyhun Təhməzov minnətdarlıq edərək deyib: "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi ərəfəsində lazımi şəraiti olan hərbi hissənin istifadəyə verilməsi şəxsi heyətin böyük sevincinə səbəb olub. Belə bir hərbi hissədə xidmət etməkdən şərəf duyuruq. Muxtar respublikada hərbi hissələr üçün yaradılan şərait, göstərilən qayğı şəxsi heyətin döyüş ruhunu artırır, bizi qələbəyə daha da ruhlandırır. Günnüt kəndinin və ətrafında olan yüksəkliklərin azad olunması bunun bariz nümunəsidir. Azərbaycanın üçrəngli bayrağını Günnüt kəndində olduğu kimi, Laçında, Kəlbəcərdə, Xankəndidə və Azərbaycanın digər işğal olunmuş torpaqlarında da dalğalandırmağa hazırıq."

Əsgər Ayxan Fətullayev deyib: "Hərbi qulluqçuların döyüş ruhu yüksəkdir. Aparılan uğurlu əməliyyat bir daha göstərdi ki, böyük qələbəmizin bir addımlığındayıq. Şanlı zəfərlər qazanmağa hazırıq. Çünki qüdrətli Azərbaycan dövlətinin güclü ordusunun əsgərləriyik."

Ayxan Fətullayev yaradılan şəraitə və göstərilən diqqətə görə şəxsi heyət adından minnətdarlıq edib.

Əsgər Yavər Məmmədov çıxış edərək deyib: "Azərbaycan torpağı biz əsgərlər üçün əzizdir və onun müdafiəsində daim ayıq-sayıq dayanmağa hazırıq. Yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, hər bir əsgər özünü evindəki kimi hiss edir. Hərbi sirlərə yiyələnir və qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə çalışırıq. Mən bu yaxınlarda hərbi xidməti bitirərək ehtiyata buraxılacağam. Lakin əsgər yoldaşlarımızla birgə əmin edirik ki, Azərbaycanın müdafiəsinə, verilən hər bir tapşırığın uğurla yerinə yetirilməsinə daim hazırıq."



Sonra şəxsi heyət "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" şüarını səsləndirib.

Ali Məclisin sədri hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, hərbi hissənin ərazisində qərargah binası, 126 yerlik əsgər və 52 yerlik zabit yataqxanaları, yeməkxana, kafe, qazanxana və avtomobillər üçün saxlanc yeri inşa edilib. Qərargah binasında iş və sinif otaqları vardır. Sinif otaqlarında yaradılan şərait şəxsi heyətin hərbi-nəzəri biliklərinin və ideoloji hazırlıqlarının artırılmasına öz töhfəsini verəcəkdir. Hərbi hissədə əsgərlərin fiziki və hərbi hazırlığı diqqətdə saxlanılıb, sıra meydanı, ümumqoşun manevlər zolağı və idman şəhərciyi salınıb, voleybol, basketbol və futbol meydançaları istifadəyə verilib.

Ərazidə abadlıq işləri də aparılıb, gülkarlıqlar salınıb.

Ali Məclisin sədri Əlahiddə Ümumqoşun Ordunun daşınan kompleks rabitə stansiyasına və hava hücumundan müdafiə bölmələrinin idarəetmə məntəqəsinə baxıb.



Məlumat verilib ki, Əlahiddə Ümumqoşun Ordunun Hərbi Zavodunda yığılan 10 ədəd kompleks rabitə stansiyası İP texnologiyalarına əsaslanır və müasir avadanlıqlarla təmin olunub. Avtomobil və qoşqu üzərində yığılan kompleks rabitə stansiyasının rabitə məsafəsi 100 kilometrdir. Stansiya idarəetmə məntəqələri arasında və daxilində rəqəmsal kanallarla audio, video, şəkil, data, analoq, İP telefon və radio məlumatların mübadiləsini məxfilik qorunmaqla təmin edir.

Hava hücumundan müdafiə bölmələrinin idarəetmə məntəqəsi daimi dislokasiya və səhra şəraitində döyüş növbətçiliyi aparan hava hücumundan müdafiə heyətlərinin idarə olunması üçün nəzərdə tutulub. İdarəetmə məntəqəsi planşet, radiostansiyalar və digər zəruri avadanlıqlarla təchiz edilib. Bu da muxtar respublikanın istənilən ərazisində hava hücumundan müdafiə heyətlərinin idarə olunmasına və hava məkanına nəzarətin həyata keçirilməsinə imkan verir. Hazırda 6 idarəetmə məntəqəsi istismara verilib.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilib.

İyunun 23-də Naxçıvan şəhərində açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov muzeydə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, muzeyin ümumi sahəsi 13 min kvadratmetrdir. Burada müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş 26 adda silah, texnika və qurğular - haubitsa, top və minaatanlar, hava hücumundan müdafiə üzrə döyüş maşınları, zenit-raket və qurğuları, "Mi-8T" döyüş-nəqliyyat helikopteri, yerqazan və manevləğvetmə maşınları, tanklar, piyadaların döyüş maşınları, zirehli transportyor və döyüş-kəşfiyyat maşınları, dartıcılar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər nümayiş olunur. Hər bir döyüş texnikası audio-məlumatlandırma sistemi ilə təmin edilib.

Şəhər sakinlərinin və qonaqların muzeylə tanışlıqları üçün lazımi şərait yaradılıb.

Baxış zamanı qeyd olunub ki, ərazidə yeni istirahət parkı da salınıb. 5 min kvadratmetr sahəni əhatə edən parkda dekorativ ağaclar və gül kolları əkilib, şəlalə tikilib, müasir işıqlandırma sistemi quraşdırılıb. Parkda oturacaqlar və şahmat stolları qoyulub, sakinlərin mənalı istirahəti təmin olunub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

1918 Azərbaycan Ordusu - 100 2018

## Müdafiə naziri Mənzil-İstismar İdarəsinin yeni inzibati binasının açılışında iştirak edib

İyunun 23-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Mənzil-İstismar İdarəsinin əsaslı təmir edilmiş yeni inzibati binasının açılışında iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə nazirinə məlumat verilib ki, mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və qaz ilə təchiz edilmiş dördmərtəbəli bina yüzdən artıq inzibati və xidməti iş otaqları, eləcə də təntənəli mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş konfrans zalından ibarətdir. Bütün otaqlar mebel və kommunikasiya xətləri ilə təmin olunub.

Ərazidə nəzarət-buraxılış məntəqəsi, xüsusi avtomobil texnikası üçün saxlanc, yeməkxana tikilib, ağac və dekorativ gül kolları əkilib, asfalt örtüyü salınıb.

Binanın açılışından və ərazi ilə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət, mənzil-istismar və kommunal şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verib.

## “Hər birimiz Vətənə xidmət edirik” adlı yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı

*Müdafiə Nazirliyinin və Mətbuat Şurasının Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə “Hər birimiz Vətənə xidmət edirik” mövzusunda elan etdiyi yazı müsabiqəsinin qaliblərinin iyunun 25-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində mükafatlandırılması mərasimi keçirildi.*



Müsabiqənin məqsədi Azərbaycan Ordusunda həyata keçirilən genişmiqyaslı islahatların, qoşun növlərində və qismlərində əldə olunan nailiyyətlərin, tətbiq edilən qabaqcıl təcrübənin, hərbi hissələrdə aparılan tikinti-quruculuq işlərinin, hərb işinin müxtəlif sahələrində qazanılan uğurların, eləcə də hərbi mövzuları əks etdirən digər məsələlərin kütləvi informasiya vasitələrində obyektiv işıqlandırılması, təbliği, habelə ictimaiyyətlə ordu arasında əlaqələrin daha da genişləndirilməsini təmin etməkdir.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Silahlı Qüvvələrin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirdi ki, yazı müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncamından irəli gələn tapşırıqların icrası ilə bağlı keçirilib.

General-mayor Rasim Əliyev Ali Baş Komandanın diqqət və qayğısı sayəsində son illər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən geniş islahatlardan danışdı, kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırdı, ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu müsabiqənin əhəmiyyətini xüsusi vurğuladı.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov da öz növbəsində Silahlı Qüvvələrin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etdi və sona çatan müsabiqənin ordu-media əməkdaşlığının intensivləşməsinə, səmərəliliyin artırılmasına, cəmiyyətdə vətənpərvərlik təbliğatının gücləndirilməsinə təsir göstərdiyini qeyd etdi.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri polkovnik Vaqif Dərgahlı müsabiqə haqqında məlumat verdi. Bildirdi ki, müsabiqəyə 70-ə yaxın məqalə təqdim olunub.

Müsabiqəyə martın 30-dan iyunun 10-dək olan müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında dərc edilən yazılar buraxılıb. Təqdim olunan yazılarda üstünlük mövzunun dolğun əhatə edilməsinə, faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyətinə, ifadə vasitələrinin zənginliyinə, oxucu üçün informativlik dərəcəsinə, müqayisəli təhlil üslubundan istifadəyə verilib.

Qeyd edildi ki, müsabiqəyə təqdim olunan yazılar diqqətlə yoxlanıldıqdan sonra qaliblər müəyyənləşdirilib.

Tədbirin sonunda müsabiqənin qalibləri mükafatlandırıldı.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

## “Ordunun gücü şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə tamamlanır”

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyi, Mərkəzi Zabitlər Evinin yaradılmasının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, müxtəlif ictimai təşkilatların nümayəndələri və Mərkəzi Zabitlər Evinin şəxsi heyəti iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev toplaşanları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edərək bildirdi ki, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradılmasının 26-cı ildönümü Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyi ərəfəsində qeyd olunur. “Ordunun gücü şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə tamamlanır. Bu gün ordumuz dünyanın ən güclü orduları sırasındadır. Yüksək döyüş qabiliyyətinə malik olan ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Bu istiqamətdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin də fəaliyyəti diqqət çəkir. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq keçirilən kütləvi vətənpərvərlik tədbirlərində, "Açıq qapı" günlərində kollektivin ayrı-ayrı hərbi hissələrdə çıxışları şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malik olur. Bu baxımdan yaradıcı kollektiv ordu quruculuğunda yaxından iştirak edir.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi beynəlxalq tədbirlərin iştirakçıları qarşısında da çıxış edir ki, bu da Azərbaycan incəsənətinin təbliği baxımından dəyərləndirilməlidir.”

General-mayor Rasim Əliyev əminliklə bildirdi ki, Mərkəzi Zabitlər Evinin kollektivi bundan sonra da xidməti borclarını layiqincə yerinə yetirəcək, ordunun şəxsi heyətinin asudə vaxtının səmərəli təşkilində səylərini daha da artıracaqlar. Ön cəbhədə xidmət edənlər qədər fədakar olan bu kollektivə gələcək həyatlarında və işlərində uğurlar arzuladı.



Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova öncə qədim Azərbaycan dövlətlərinə nəzər saldı, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından, onun zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymasından, xalqın qəlbində azadlıq, istiqlal duyğularını gücləndirməsindən danışdı, bugünkü müstəqil dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirdi.

Polkovnik Zülfüqar Abdullayev, ehtiyatda olan polkovniklər Cəlil Xəlilov və Mehdi Mehdiyev, Abiyat Ağadadaşova, Şahin Musaoğlu, Elşən Uluxanlı çıxışlarında Azərbaycan Xalq Cümhuriyyətindən, Milli Ordunun yaradılmasından və fəaliyyətindən danışdılar, Mərkəzi Zabitlər Evinin kollektivinə təbriklərini çatdırdılar.

Mərkəzi Zabitlər Evinin şəxsi heyəti fəxri fərman və ordenlərlə təltif olundu.

Sonda Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi bir-birindən maraqlı rəqs və musiqi nömrələrindən ibarət konsert proqramı ilə çıxış etdi.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

1918 **Azərbaycan Ordusu - 100** 2018

# Ulu öndər Heydər Əliyev ordumuzun memarıdır

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus rol oynadı və yeni milli dəyərlər miras qoyub tarixin yaddaşına düşdü. Mövcud olduğu zaman ərzində demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahəsində mühüm addımlar atıldı və qısa müddətdə həyata keçirilən tədbirlər milli dövlətçilik ənənələrimizin formalaşmasına gətirib çıxartdı. Bununla da Xalq Cümhuriyyəti Azərbaycanın XX əsr tarixində yeni parlaq səhifələr açdı.

Dövlətçilik tariximizdə mühüm rol oynayan respublika çox keçmədən süquta uğradı və SSRİ-nin tərkibinə daxil edildi. Xalqın müstəqillik arzusu, istəyi imperiya zəncirlərini qırıb parçaladı və 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu.

Müstəqilliyinin ilk illərində ölkədəki mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi vəziyyətin mənfi təsiri ordu quruculuğundan da yan keçmədi. Könüllülərdən yaradılan ordu istər struktur, istərsə də güc baxımından mövcud şəraitin tələblərinə cavab vermir, yerli özünümüdafiə batalyonları məhəlli xarakter daşıyırdı. Vahid komandanlığın olmaması nəticəsində silahlı dəstələr müxtəlif şəxslərin əlində cəmlənmişdi. Digər tərəfdən, Ermənistanın ərazi iddiaları ordu quruculuğunun normal, elmi əsaslarla aparılmasına mane olurdu. Səriştəsizlik ucbatından, müstəqilliyini yenicə bərpa etmiş respublikada ordu quruculuğu arzulanan səviyyədə getmirdi.

Xalqımız müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi bir zamanda -1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkəmizin rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi və mütəşəkkil Azərbaycan Ordusunun yaranması üçün siyasi əsas yarandı.

Böyük tarixi şəxsiyyət, siyasət elminin mahir bilicisi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı respublikanı labüd süqutdan xilas etdi və bununla da Azərbaycanda ordu quruculuğunun yeni mərhələsi başlandı. Azərbaycan Ordusunun formalaşması prosesi geniş vüsət aldı. Çox keçmədən ordumuz cəbhədə bir neçə uğurlu əməliyyat həyata keçirdi, bir sıra yaşayış məntəqələrimizin düşməndən azad edilməsinə nail oldu.



1994-cü il mayın 12-də atəşkəs barədə sazişin imzalanması ordu quruculuğunda köklü islahatlar aparılmasına şərait yaratdı. Orduya çağırışla bağlı bütün problemlər həllini tapdı, fərarilik halları aradan qalxdı. Dövlətçiliyi və hərbçi şərəfini uca tutan zabitlər rəhbər vəzifələrə irəli çəkildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı digər zəruri addımlar atıldı.

Azərbaycan Ordusunun döyüş hazırlığının səviyyəsi təkcə hərbi texnikadan deyil, bu texnikanı idarə edə biləcək savadlı, ixtisaslı kadrlardan, zabit korpusundan əhəmiyyətli dərəcədə asılı idi. Bu istiqamətdə də mühüm zəruri məsələlər həllini tapdı.

1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Həmin gün keçirilən ilk iclasda ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrinin, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına istiqamətləndirilmiş tədbirlər müəyyən olundu. Bu, olduqca vacib amillər idi və Ümummilli Liderimiz ordu quruculuğuna məhz bu məsələləri həll etməklə başladı. Nəticə etibarilə bu proses dünya təcrübəsinə və milli dəyərlər sisteminə əsaslanmaqla uğurla davam etdirildi. Qısa müddətdə atılan düşünülmüş addımlar öz bəhrəsini verdi - nizami ordu yaradıldı və formalaşmağa başladı.

Ulu öndər Heydər Əliyevin noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət edərək hamını ölkənin azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa səsləməsindən sonra minlərlə könüllü gənc torpaqlarımız uğrunda gedən döyüşlərə atılmaq üçün ordu sıralarına gəldi. Tezliklə vahid komandanlıq altında hərbi hissələr və taborlar yaradılaraq cəbhəyə göndərildi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycan Ordusu erməni silahlı birləşmələrinin respublikanın içərilərinə doğru irəliləməsini dayandırdı, hətta əks-hücuma keçdi. 1994-cü il yanvarın 5-də aparılan uğurlu əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi, 22 kənd işğaldan azad edildi. Həmçinin düşmən ordumuzun Kəlbəcər-Ağdərə, Goranboy-Tərtər istiqamətlərində əks-hücumlarına tab gətirməyərək ağır itkilər verdi və geri çəkilməyə məcbur oldu. Bütün bunlar ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi şəxsən cəbhə bölgələrində əsgərlərin vəziyyəti ilə yaxından tanış olması, konkret tədbirlər müəyyənləşdirməsi, ordunun şəxsi heyətinin mənəvi hazırlığını əhəmiyyətli dərəcədə yüksəltməsindən sonra baş verdi.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il mayın 28-də imzaladığı Fərmanla 26 iyunun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunması ordu quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malik oldu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilir. Təminatı yaxşılaşdırmaq üçün ölkəmizdə müxtəlif təyinatlı silah növləri istehsal edilir. Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 90-cı və 95-ci ildönümlərində keçirilən paradlarda ordumuzun qüdrəti bir daha dünyaya nümayiş etdirildi.

Ümummilli Lider tərəfindən aparılan struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması Azərbaycan Ordusunu keyfiyyətcə yeniləşdirdi. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycan ilə NATO arasında sıx və səmərəli əməkdaşlıq yaradıldı. Bu əməkdaşlıq ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Azərbaycan Ordusunun modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxardı. İndi hər il iki mindən çox hərbçimiz NATO proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsəyirlər. 1997-ci ildən Azərbaycanın xüsusi təyinatlı hərbi təhsil müəssisələri NATO standartlarına keçib, Azərbaycan Ordusunun tərkibində yaradılan sülhməramlı tabor Şimali Atlantika Alyansının xətti ilə keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edir, münaqişə ocaqlarında təhlükəsizliyin, sülhün təminatına dəstək verir. Azərbaycan Ordusu bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordularından biridir. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı sürətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır. Bütün bunların nəticəsidir ki, hazırda torpaqlarımızı düşməndən azad etməyə qadir, yüksək döyüş ruhuna malik ordumuz formalaşıb. Bu, özünü uğurlu aprel döyüşləri zamanı əyani şəkildə təsdiqlədi. İqtisadi cəhətdən qüdrətli olan dövlət hər şeyə qadirdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ordumuzun inkişafına daim qayğı göstərməsi, onun daha da qüdrətli olması üçün bütün tədbirlərin həyata keçirilməsi sayəsində güclü Milli Ordumuz daha da təkmilləşir. Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə torpaqlarımızın düşmən əsarətindən azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün hər cür imkan var. Ancaq möhtərəm Prezidentimiz sülh tərəfdarı olduğundan münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verir. Əgər bu bir nəticə verməzsə, qüdrətli ordumuz bu işin öhdəsindən məharətlə gələcək.

Milli Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə bir qüdrətli ordu ilə Vətənimizi yağılardan qorumağa, işğal altında olan torpaqlarımızı azad etməyə həmişə hazırıq.

Hazırda Azərbaycan Ordusunun qarşısında dayanan bir nömrəli vəzifə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsidir. Ordumuzun günü-gündən gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar məhz bu vəzifənin uğurla yerinə yetirilməsinə yönəlib.

**Ədliyyə polkovniki**
**Aydın ƏLƏSGƏROV,**
**Azərbaycan Respublikası**
**Hərbi Prokurorluğunun**
**şöbə rəisi**

# Mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



İyunun 22-də Müdafiə nazirinin təsdiq etdiyi plana uyğun olaraq, mühəndis qoşunlarının hissə və bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin keçirilməsində əsas məqsəd hərbi əməliyyatların mühəndis təminatının yerinə yetirilməsi zamanı komandirlərin bölmələri idarəetmə bacarığını praktiki fəaliyyətdə yoxlamaq, qərargahların döyüşə hazırlıq dərəcələrinə gətirilmə vərdişlərini təkmilləşdirmək, yaranmış şəraitə uyğun qərar qəbul etmək və vəziyyəti qiymətləndirməkdən ibarət olub.



Kütləvi informasiya vasitələrinin nümayəndələri təlimin gedişini izləyiblər.

1918 Azərbaycan Ordusu - 100 2018

# Veteranlar Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyini qeyd etdilər

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyi münasibəti ilə tədbir keçirildi.*



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov tədbiri açıq elan etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni ifa olundu.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-polkovnik Tofiq Ağahüseynov tədbir iştirakçılarını Azərbaycan Ordusunun 100 illik yubileyi münasibətilə təbrik etdi. "Ordumuzun qeyd edəcəyi bu bayram hər bir azərbaycanlının, hər bir vətəndaşın bayramıdır. Azərbaycan Ordusunun tarixi, həqiqətən də, qürurvericidir. Bildiyimiz kimi, 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra əsas vəzifələrdən biri milli ordunun formalaşması idi. 1918-ci il iyunun 26-da Nazirlər Şurasının qərarı ilə müntəzəm hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradılmışdır. Bu qərar Şərqdə ilk demokratik hökumətin öz ordusunu yaratmasına hüquqi əsas verdi. Artıq həmin dövrdən bir əsr keçir. İstər Xalq Cümhuriyyətinin süqutu, istərsə də İkinci Dünya və Qarabağ müharibələri ordu quruculuğu prosesində öz təsirini göstərmişdir. Bütün bunlara baxmayaraq xalqımızın xilaskarı, dahi sərkərdəmiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çoxlu işlər gördü. Həmçinin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 İyun Silahlı Qüvvələr Günü elan edildi. Bir daha hamınızı bu bayram münasibətilə təbrik edir, bu gün səngərlərdə, eləcə də digər sahələrdə Vətənin müdafiəsində ayıq-sayıq dayanan əsgər və zabitlərimizə möhkəm cansağlığı, gələcək xidmətlərində uğurlar arzulayıram".

Sonra Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış etdi. İdarə rəisi əvvəlcə Müdafiə Nazirliyinin rəhbərliyinin təbriklərini qonaqlara çatdırdı və vurğuladı ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. "Azərbaycan Xalq Cümhuriyyəti bizə bir neçə böyük miras qoyub. Bunlardan biri də Azərbaycanın milli ordusudur. Sovet hakimiyyəti illərində milli zabit kadrlarımızın yetişdirilməsinin əhəmiyyətini yaxşı başa düşən ümummilli lider Heydər Əliyev Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin təşkilinə nail oldu. Həmçinin, Ulu Öndər azərbaycanlı gənclərin SSRİ-nin digər ali hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail olmuşdu. Bunun nəticəsidir ki, o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin dövlət müstəqilliyinin bərpasından sonra Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu oldu. Bu məktəblərin yetirmələri Qarabağ müharibəsində mərdliklə vuruşdular. Bu gün bir çox güc strukturlarında həmin məktəblərin yetirmələrini görmək olar. Hazırda ordu quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. İndi müasir ordumuz düşmən işğalında olan ərazilərimizi azad etməyə tam qadirdir. İki il əvvəl aprel döyüşlərində cəbhə xəttində baş verənlər ordumuzun gücünü və döyüş əzmini aydın göstərdi. İşğalçıya, onun havadarlarına Azərbaycan əsgərinin gücü, qələbə əzmi nümayiş etdirildi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ermənilər tərəfindən işğal altında olan Azərbaycan torpaqlarının şanlı ordumuz tərəfindən azad ediləcəyi gün uzaqda deyil. Siz veteranlar daim Azərbaycan əsgərini səngərdə ziyarət etməklə, onlarda ruh yüksəkliyi yaradırsız. Onlar sizin və xalqımızın inamı sayəsində, Ali Baş Komandanın başçılığı altında işğalda olan torpaqlarımızı azad edəcəklər".



Prezident Administrasiyası İctimai-Siyasi şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Bədirxan Əhmədov, veteranlardan general-mayor Vladimir Timoşenko və başqaları Azərbaycan Ordusunun keçdiyi şərəfli tarixi yoldan və ölkədə bu gün inamla aparılan ordu quruculuğundan danışaraq, Azərbaycan əsgərinin və gənclərinin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlərdən söz açdılar.

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Musiqi və Rəqs Ansamblı qonaqlar qarşısında çıxış etdi.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# "Türk Ulduzları" aviasiya qrupu ölkəmizə gəlib

*Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçiriləcək bayram tədbirlərində iştirak etmək məqsədilə Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" aviasiya qrupuna daxil olan 8 ədəd F-5 tipli təyyarələri ölkəmizə gəlib.*

Qeyd edək ki, iyunun 26-da hərbi paraddan sonra saat 12.30-da "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan 2 ədəd F-16 və 8 ədəd F-5 tipli təyyarələrin Bakı buxtası üzərində nümunəvi uçuşları keçiriləcək.



# "Azərbaycan Ordusunun istənilən gündəlik fəaliyyəti düşmən tərəfində xof və təşvişə səbəb olur"

Bu gün erməni mətbuatında düşmən əsgərin cəsədinin tapılması barədə məlumat verilib. Bir neçə saat sonra isə daha bir məlumatda guya Azərbaycan Ordusunun diversiya keçirdiyi bildirilir.

Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, bu kimi xəbərlər yaymaqla Ermənistan tərəfi ordusundakı qanunsuzluqlar və nizamnamədən kənar münasibətlər nəticəsində mütəmadi olaraq baş verən qeyri-döyüş ölüm hadisələrini və cinayətləri ört-basdır etmək məqsədini güdür.

Azərbaycan Ordusunun istənilən gündəlik fəaliyyəti düşmən tərəfində xof və təşvişə səbəb olur. Ordumuzun bölmələri heç bir diversiya fəaliyyəti həyata keçirməyib.

Ermənistan mətbuatının yaydığı məlumatlar həqiqətə uyğun deyil və yalnız ölkə ictimaiyyətinin diqqətini ordusundakı özbaşınalıqlardan və artan qeyri-döyüş itkilərdən yayındırmağa yönəlib.

Cəbhə xəttindəki əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır.

# Hərbi parad keçiriləcək

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi ilə əlaqədar Azadlıq Meydanında hərbi parad keçiriləcək.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4000 nəfərədək şəxsi heyəti iştirak edəcək.

Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar, eləcə də hərbi gəmi və katerlər nümayiş olunacaq.

Paradda, həmçinin Türkiyə Respublikası, Pakistan İslam Respublikası, Belarus Respublikası, Bəhreyn Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran İslam Respublikası, İsrail, Qazaxıstan Respublikası, Özbəkistan Respublikası, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edəcək.

1918 **Azərbaycan Ordusu - 100** 2018

# Hərbi hissələrdə bayram tədbirləri keçirildi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, “Azərbaycan Xalq Cümhuriyyəti İli” çərçivəsində Azərbaycan Ordusunun 100 illik yubileyi münasibəti ilə hərbi hissələrdə, birlik və birləşmələrdə, Əlahiddə Ümumqoşun Orduda silsilə tədbirlər keçirildi. Tədbirlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi yad edildi.*





Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Gəncə Qarnizonu Zabitlər Evinin birgə təşkilatçılığı ilə Şəmkir rayonundakı Bayraq meydanında Silahlı Qüvvələrin yaradılmasının 100 illiyinə həsr olunmuş "Ordumuz qürur mənbəyimizdir" adlı hərbi vətənpərvərlik tədbiri keçirildi.

Polkovnik-leytenant Rasim Manafov Azərbaycan xalqının qədim və zəngin dövlətçilik ənənələrindən, XX əsrdə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, dövlət quruculuğundan bəhs etdi. Zabit qeyd etdi ki, 100 il əvvəl dövlət quruculuğunda xüsusi yer tutan Milli Ordunun yaradılmasına böyük diqqət yetirilmişdir. Müasir Azərbaycan dövləti və Milli Ordumuz Xalq Cümhuriyyətinin layiqli varisləridir. “Dövlətçilik tarixinə həmişə böyük qiymət verən ulu öndər Heydər Əliyev bildirmişdir ki, hər bir kəs ölkəsinin, dövlətinin tarixini bilməklə qədim tarixi ənənələrə sadiq qalmalı və Vətəni naminə bütün fədakarlıqlara hazır olmalıdır.

Bu böyük ənənə Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tarixi şəxsiyyət tərəfindən təməli qoyulan böyük quruculuq işləri, islahatlar, ordu quruculuğu dinamik surətdə inkişaf etdirilir və Azərbaycan dövləti dünya miqyasında iqtisadi, mədəni, siyasi elmi cəhətdən sürətli inkişaf edən ölkə kimi tanınır...

100 illiyini qeyd etdiyimiz Azərbaycan Ordusu müasir tələblər səviyyəsində qurularaq dünyanın inkişaf etmiş orduları sırasında dayanır.

Azərbaycan Ordusunun şəxsi heyəti Vətən torpaqlarımızın azad edilməsi uğrunda Ali Baş Komandanın qarşıya qoyduğu bütün tapşırıqları yerinə yetirməyə qadirdir", - deyə zabit R.Manafov dedi.

Millət vəkili Sona Əliyeva hərbi qulluqçuları və xalqımızı tarixi günlər, bayramlar münasibəti ilə təbrik etdi. Onlara böyük uğurlar, qələbələr arzuladı. Millət vəkili bildirdi ki, ölkədə həyata keçirilən böyük quruculuq işləri bütün sahələri əhatə edir. "Ölkə rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu inkişaf etdirilir və bu yol həmişə davam etdiriləcək. Xalqla ordunun sarsılmaz birliyi yeni qələbələrə, uğurlara yol açır. 2016-cı ilin aprel döyüşləri Azərbaycan xalqının və Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya göstərdi.



İnanırıq ki, tezliklə Vətən torpaqları Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənlərdən azad olunacaq, ölkəmizin ərazisində üçrəngli bayrağımız qürurla dalğalanacaq".

Çıxışının sonunda Millət vəkili aprel döyüşlərində qəhrəmanlıqla həlak olan şəmkirlilərə həsr olunmuş xatirə albomunu polkovnik-leytenant Rasim Manafova təqdim etdi.

Azərbaycan Respublikasının Xalq artisti Azərinin ifa etdiyi mahnılar böyük rəğbətlə qarşılandı.

* * *

Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının təşəbbüsü və Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun 100 illik yubileyi münasibəti ilə ön xətdə yerləşən "N" hərbi hissəsində bayram tədbiri keçirildi.

YAP Suraxanı rayon təşkilatının bir qrup fəal üzvü hərbi hissədə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış oldular, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə etdilər.

Qonaqları müşayiət edən polkovnik Elşad Əbilov bildirdi ki, ordu quruculuğundakı uğurlar hamınızın gözü önündədir. “Bütün bunlar - Azərbaycan Ordusunun gücünün, döyüş əhval-ruhiyyəsinin artırılması, müasir hərbi texnika ilə təchiz olunması, əsgərlərin, hərbi qulluqçuların məişət şəraitinin yüksəldilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanının göstərdiyi diqqət və qayğının məntiqi nəticəsidir”.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov qeyd etdi ki, XX əsrin sonlarında yenidən dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğunun, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. “Ümummilli Lider tərəfindən işlənib hazırlanmış mükəmməl siyasi islahatlar strategiyası müstəqil Azərbaycanın dünyanın aparıcı dövlətləri arasında nüfuzunun yüksəlməsinə zəmin yaratdı.”

Bu gün Respublikamızın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla davam etdirildiyini xüsusi olaraq vurğulayan Vüqar Seyidov bu sahədə qazanılan nailiyyətlərin qürur hissi doğurduğunu, respublikamızda siyasi-iqtisadi və sosial islahatların mütəmadi olaraq həyata keçirildiyini bildirdi.

Sonda təşkilat sədri bildirdi ki, Azərbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi ilə bayrağımızı Şuşada, Xankəndidə... dalğalandıracaqdır.

Daha sonra xidmətdə fərqlənən bir qrup əsgər və zabit YAP Suraxanı rayon təşkilatı tərəfindən mükafatlandırıldı, hərbi hissəyə televizor və kitablar hədiyyə edildi. Tədbir gənc müğənnilərin ifasında şəxsi heyət üçün hazırlanmış konsert proqramı ilə davam etdi.

Sonda qonaqlar təşkil olunmuş tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.

* * *

"N" hərbi hissəsində Azərbaycan Ordusunun yaranmasının 100-cü ildönümünə həsr olunmuş bayram tədbiri keçirildi.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, valideynlər, veteranlar təşkilatının əməkdaşları, ictimaiyyət nümayəndələri və Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları iştirak etdilər.

Çıxış üçün söz alan polkovnik Qədir Nəsibov tədbir iştirakçılarını 26 İyun Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik etdi. Zabit çıxışında 100 illik Azərbaycan Ordusunun tarixi keçmişinə qısaca nəzər saldı: "1918-ci il iyunun 26-da diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul olundu və Azərbaycan Ordusunun yaradılmasına başlanıldı. 1918-1920-ci illərdə görkəmli generallarımız Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski və digər peşəkar hərbçilərimizin rəhbərliyi ilə Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərbi hazırlığa və intizama malik milli ordu hissələri formalaşdırılıdı."

Zabit vurğuladı ki, Azərbaycan Xalq Cümhuriyyətinin ordusuna ən böyük tarixi qiyməti məhz ulu öndər Heydər Əliyev verdi. "Dahi şəxsiyyət Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri olarkən Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı elan etdi, eləcə də 1918-ci il iyunun 26-da Milli Ordunun yaranması gününü Azərbaycan Silahlı Qüvvələri Günü kimi təsis etdi".

Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının bayram tədbirində iştirakına diqqət çəkən polkovnik bildirdi ki, tarixin çətin məqamlarında hər iki dövlətin əsgəri və ordusu daim bir-birinə dayaq olub, düşməni məhv edərək ədaləti bərqərar edib. "Bakının azad edilməsində yaxından iştirak edən Nuru paşanın "Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir" - deməsi buna bariz nümunədir.

Zabit Q.Nəsibov bu gün də ölkələrimiz arasındakı müdafiə sahəsində əməkdaşlığın uğurla davam etdirildiyini qeyd etdi.

Ölkəmizdə ordu quruculuğu sahəsindəki uğurlardan bəhs edən polkovnik Qədir Nəsibov son illər Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş və mənəvi-psixoloji hazırlığın gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldüyünü qeyd etdi.

Tədbir rəngarəng və maraqlı konsert proqramı ilə davam etdi. Tanınmış incəsənət nümayəndələri hərbi vətənpərvərlik mövzusunda mahnılar ifa etdilər.

**"Azərbaycan Ordusu"**

| **Baş redaktor** | **Telefonlar** | **Ünvanımız** | **Növbətçi** | **Qəzetin hesabı** | | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 435 Nüsxə 3550 |